# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 47 (1175) 5 mart - 7 mart 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

**(əvvəli qəzetin 2 mart sayında**

### *Aqrar sektorda sərfəli istiqamətlərə dövlət dəstəyi*

**Hesabat ilində rayonun iqtisadiyyatında mühüm rol oynayan heyvandarlıq sahəsinin intensiv inkişaf etdirilməsinə xüsusi diqqət verilmiş və aparılan məqsədyönlü tədbirlər nəticəsində mühüm uğurlar əldə edilmişdir.**

də qeyri neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı dövlət tərəfindən iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Hazırda ərzaq təhlükəsizliyinə nail olunması aqrar sahədə dövlət siyasətinin mühüm istiqaməti olaraq nəzərdə tutulur. Bu məqsədlə kənd təsərrüfatında kooperasiyanın inkişaf etdirilməsi, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının, ixracının artırılması, tədarükü və emalı sahəsində olan problemlərin aradan qaldırıl-ması, beynəlxalq təcrübə nəzərə alının yenidən qurulması və küçə divarlarının tikintisi aparılmış, yolun bir hissəsinə asfalt örtüyü döşənmiş, 1 A saylı kommunal yaşayış binasının, həmçinin S.Vurğun küçəsi 5, V.Eyvazov küçəsi 1A və H.Əliyev prospekti 1Q saylı kommunal yaşayış binalarının dam örtükləri əsaslı təmir olunmuş, həmçinin fasadlarında təmir işləri aparılmışdır. Eyni zamanda M.Məmmədov küçəsi döngə 1-ə və M.F.Axundov küçəsinin bir hissəsinə asfalt örtüyü döşənmişdir.

Cəlayir kəndində tibb mən-



# QAX: İNKİŞAFIN TƏNTƏNƏSİ



01 yanvar 2016-cı il tarixə rayonda 23603 baş iribuynuzlu mal, o cümlədən 12028 baş ana mal, 66225 baş qoyun-keçi, 94 mın baş müxtəlif növ ev quşları, 8 mindən artıq arı ailəsi mövcud olmuşdur. Mövcud mal-qaranın yemə olan tələbatının ödənilməsi məqsədilə hər bir ərazidə örüş sahələri ayrılmış, 31 nəfər qoyunçuluqla məşğul olan hüquqi və fiziki şəxslərə təsərrüfatlarını saxlamaq üçün 13,1 min ha qışlaq və 8,4 min ha yaylaq sahəsi icarəyə verilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində heyvandarlıq məhsulları istehsalının da intensiv artımı təmin olunmuş, nəticə etibarı ilə 2014-cü illə müqayisədə ət istehsalı 18 ton artaraq 3005 tona, süd istehsalı 124 ton artaraq 15857 tona, yumurta istehsalı 12,6 min ədəd artaraq 7 milyon 869 min ədədə, yun istehsalı 1ton artaraq 126,7 tona çatmışdır.

Azərbaycan Respublikasının Prezidentinin 16 yanvar 2014-cü il tarixli "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamında ölkəmaqla ərzaq məhsullarının təhlükəsizliyinə və keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi və kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması və daxili bazarın qorunması nəzərdə tutulmuşdur. Daxili bazarın qorunması, kənd təsərrüfatı məhsullarının süni qiymət artımının qarşısının alınması məqsədi ilə Bakı şəhərində təşkil olunmuş yarmarkalarda rayonun sahibkarlarının fəal iştirakı artıq ənənə formasını almışdır.

### *Abadlıq, tikinti və quruculuq işlərinin müasirləşməsi*

Hesabat ilində yolların əsaslı təmiri və abadlıq işlərinin görülməsi ilə bağlı büdcədə nəzərdə tutulmuş vəsait hesabına şəhərin 28 May küçəsində divarların, su arxlarının yenidən tikintisi, küçə kənarı tikililərdə dam örtüklərinin dəyişdirilməsi başa çatdırılmış və küçəyə asfalt örtüyü döşənmişdir. Hesabat ilində şəhərin Ü.Hacıbəyov küçəsində də su arxları-

təqəsinin tikintisi başa çatdırılaraq istifadəyə verilmiş, Qarabaldır kəndinin 0,5 km uzunluğunda yerli əhəmiyyətli giriş yolu əsaslı təmir olunmuşdur.

Hesabat dövründə şəhər 5 №-li tam orta məktəbinin bir hissəsində, şəhər 2 və 9 saylı körpələr evi-uşaq bağçasında təmir işləri aparılmış, "Uşaq yaradıcılıq birliyi"nin binasının birinci mərtəbəsi əsaslı təmir olunmuş, Qaxmuğal məscidində bərpa-abadlıq işləri başa çatdırılmışdır.

Rayon büdcəsində nəzərdə tutulmuş vəsait hesabına Rayon Gənclər və İdman İdarəsinin həyətindəki yardımçı tikililərdə əsaslı təmir işləri, Rayon Mədəniyyət Mərkəzinin 4 otağında, Ləkit mədəniyyət evində, İbaxlı kənd klubunda və Rayon Poliklinika binasının bir hissəsində, o cümlədən rayon Mərkəzi xəstəxanasının həyətində təmir işləri aparılmışdır.

Şəhərdə İ.Dağıstanlı küçəsində 200 yerlik uşaq bağçasının və 28 May küçəsində 100 yerlik körpələr evi-uşaq bağçalarının tikintisi başa çatdırılmışdır. Turaclı kəndində üç qruplu körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri, Ağçay kəndində isə bir qruplu uşaq bağçasında tikinti işləri davam etdirilir.

Hesabat dövründə Kənd Təsərrüfatı Nazirliyinin Qax rayonu üzrə inzibati binasının tikintisi başa çatdırılmış, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax rayon şöbəsinin tikintisi davam etdirilmişdir. Qaşqaçay kəndində Qarabağ Müharibəsi əlilinə fərdi yaşayış evinin tikintisinə başlanılmış, Qax şəhərində və Əmbərçay kəndində

> **"... Biz çalışırıq ki, sizin bütün təkliflərinizi yerinə yetirək. Çünki bu, bizim iş prinsipimizdir. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Hər bir bölgədə quruculuq, inkişaf daha da sürətlə getməlidir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Qarabağ Müharibəsi əlillərinə yeni inşa edilən 2 ədəd fərdi yaşayış evində isə son tamamlama işləri aparılır.

İl ərzində rayonda 152 ədəd fərdi yaşayış evi və 14 ədəd sahibkarlıq obyekti olmaqla, ümumilikdə 166 fərdi tikinti aparılmışdır.

Kənd İnvestisiya layihəsi çərçivəsində hesabat ilində rayonun Ağyazı və Dəymədağlı kəndlərində kənddaxili yollarda təmir işləri aparılmış, Qıpçaq, Qaysarlı, Almalı, Baydarlı, Oncallı, Qorağan, Şotavar və Ağçay kəndlərində 23 km içməli su xətti çəkilmiş, 62 ədəd bulaq tikilmiş və 9 ədəd müxtəlifhəcmli su çəni qoyulmuşdur. Hazırda layihə çərçivəsində Tasmalı və Zəyəm kəndlərində abadlıq işləri, Güllük kəndində isə içməli su xəttinin çəkilişi aparılır.

### *Kənd təsərrüfatının qan damarı - meliorasiya*

Rayonda torpaqların su təminatının yaxşılaşdırılması məqsədi ilə 442 min m3 həcmdə lildən təmizləmə, 2690 m3 beton kanallarda, 25 ədəd hidrotexniki qurğuda və 15 ədəd hidropostlarda təmir işləri aparılmışdır. Sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə 620 min m3 daşqın və selə qarşı məcratəmizləmə işləri aparılmış, 1339 m3 qabyon və 12041 m3 daşbeton bəndlərdə daşqın və selə qarşı sahilbərkitmə məqsədi ilə təmir işləri aparılmışdır. İl ərzində əkin sahələrinin suvarma suyu ilə təlabatının yaxşılaşdırılması və əhalinin içməli suya olan təlabatının ödənilməsi məqsədi ilə rayonun Qorağan, Qazmalar, Dəymədağlı, Lələpaşa, Tasmalı, Cəlayir, Süskənd, Əmbərçay, İbaxlı, Əlibəyli, Zəyəm və Qındırğa kəndlərində artezian və subartezian quyuları qazılmışdır. Məlumat üçün bildirirəm ki, ölkə başçısı cənab İlham Əliyevin 15 dekabr 2015-ci il tarixli sərəncamı ilə rayonun daha altı yaşayış məntəqəsində subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

### *Rəqəmlər nə deyir?*

Hesabat ilində rayonun illik yerli xərcləri 16 miyon 540 min manat proqnoza qarşı 16 milyon 58 min manat və ya 97 faiz, yerli gəlirləri isə 3 milyon 566 min manat proqnoza qarşı 3 milyon 604 min manat və ya 101 faiz icra edilmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDOĞLU***